

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 139 (23.301)

*27 iyul 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının şura iclasında qarşıda duran vəzifələr müəyyənləşdirilib



Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatında cari ilin birinci yarım ilində görülmüş işlərin yekunları, qarşıda duran vəzifələrlə bağlı keçirilən iclasda təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov məruzə edib. Bildirib ki, ötən müddətdə təşkilatın xətti ilə əlamətdar və tarixi günlər, o cümlədən ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişinin 50-ci, Naxçıvan Muxtar Respublikasının 95-ci ildönümlərinə həsr olunmuş elmi-praktik konfranslar keçirilib.

Qeyd olunub ki, hesabat dövründə təşkilatın İdarə Heyətinin 6, şurasının 2 iclası keçirilib. Partiya sıralarına qəbulda keyfiyyət tərkibinin yaxşılaşdırılmasına, xüsusilə gənclərin partiyaya qəbul edilməsinə böyük önəm verilib, partiya sıralarına 28 üzv qəbul edilib. Bu gün təşkilatın əhatə etdiyi 23 ilk partiya təşkilatının qeydiyyatında 1555 üzv vardır. Partiya üzvlərinin 312-si qadın, 411-i isə gəncdir.

İclasda çıxış edən Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov Azərbaycanda, eləcə də muxtar respublikamızda Heydər Əliyev siyasətinin ardıcıl şəkildə davam etdirilməsi nəticəsində əldə olunan uğurlardan danışıb. Bildirib ki, qazanılmış hər bir müvəffəqiyyətin kökündə artıq özünü əsl xalq partiyası kimi təsdiqləmiş Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsinə uyğun fəaliyyəti dayanır. Partiyanın yaradıcısı, onun daimi və əbədi lideri Heydər Əliyev siyasətinə sadiqliyini əməli işi ilə sübut edən muxtar respublika Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbov diyarımızın gündən-günə çiçəklənməsi, tərəqqisi və hərtərəfli inkişafı üçün ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirir. Bunun nəticəsidir ki, muxtar respublikada, o cümlədən Sədərək rayonunda bütün sahələr sürətlə inkişaf edir, ümumi daxili məhsul, həyata keçirilən quruculuq, yaşıllaşdırma və abadlıq tədbirlərinin miqyası, tikinti-quraşdırma işlərinə qoyulan investisiyanın həcmi ildən-ilə daha da artır.

Şura iclasında çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov rayon təşkilatının, onun ərazi ilk təşkilatlarının və digər struktur bölmələrinin cari ilin birinci yarısındakı fəaliyyətini təhlil edib. Vurğulayıb ki, partiya təşkilatlarının fəaliyyətlərinin əsas istiqamətlərini müəyyən edən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun təsdiq etdiyi illik İş Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi bundan sonra da başlıca vəzifə kimi müəyyən olunmalı, həmin sənədin icrası zamanı keyfiyyət və əhatəlilik amilləri nəzərə alınmalıdır.

Sonra çıxışlar olub.

**Sərxan İSMAYILOV**

## Yarım ilin yekunları müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində keçirilən kollegiya iclasında Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək bildirib ki, səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının qorunması və keyfiyyətli tibbi xidmətlə təmin edilməsidir. Vurğulanıb ki, cari ilin ötən dövründə Şərur rayonunda icbari tibbi sığortanın tətbiqinə hazırlıq işləri ilə əlaqədar Şərur Rayon Mərkəzi Xəstəxanası və yeni yaradılmış Şərur Rayon Uşaq Xəstəxanası binalarında yenidənqurma və təmir işləri aparılıb. Həmçinin Şərur rayonunun Kərimbəyli və Ordubad rayonunun Dəstə kəndlərində həkim ambulatoriyaları üçün binalar tikilib.

Nazir qeyd edib ki, Kəngərli rayonunda icbari tibbi sığortaya keçidlə əlaqədar rayon xəstəxanası yenidən qurulub. Sədərək Rayon Gigiyena və Epidemiologiya Mərkəzi üçün yeni bina istifadəyə verilib.

1 iyun 2019-cu il tarixdən etibarən Şərur rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılıb, Kəngərli rayonunda 1 avqust tarixdən başlanılacaqdır. Şahbuz rayonunda isə tibbi sığortanın tətbiqi ilə əlaqədar hazırlıq işləri görülür.

Niyazi Novruzov bildirib ki, muxtar respublikada dispanserizasiya işini yaxşılaşdırmaq, sakinləri kütləvi müayinələrdən keçirmək, ucqar kəndlərdə və obalarda əhaliyə yüksəkixtisaslı səhiyyə xidmətləri göstərmək məqsədilə yaradılmış həkim briqadaları yerlərdə müayinə-müalicə işini təşkil edib, təhsil işçiləri arasında süd vəzi xərçəngini vaxtında aşkarlamaq üçün profilaktik kütləvi müayinələr, ilkin vərəm xəstəliyinin vaxtında aşkarlanması məqsədilə kiçikyaşlı uşaqlar arasında tuberkulin və diaskin test sınağı, yuxarı sinif şagirdləri və müəllimlər arasında flüoroqrafiya müayinəsi və məktəbyaşlı uşaqların kütləvi oftalmoloji, stomatoloji, ortopedik, endokrinoloji müayinələri davam etdirilib.

Hesabat dövründə tibb işçilərinin ixtisas səviyyəsini artırmaq məqsədilə seminar və konfranslar keçirildiyini xatırladan Niyazi Novruzov onların Bakı şəhəri və Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına təkmilləşmə kurslarına göndərildiyini, həkim və orta tibb işçilərinin sertifikasiya işinin davam etdirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, bu müddət ərzində müxtəlif klinikalardan yüksəkixtisaslı həkimlər və kollektivlər muxtar respublikaya dəvət olunub və Naxçıvan həkimləri ilə birgə xeyli sayda əməliyyatlar aparıblar.

İclasda müzakirə olunan məsələ ilə bağlı müvafiq qərar qəbul edilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Təlim toplantısından qayıdan tələbələrlə Rabitə və Yeni Texnologiyalar Nazirliyində görüş keçirilib.*

## Tələbələr "Huawei" şirkətinin yay təlim toplantısından qayıdıblar



Tədbiri giriş sözü ilə açan Rabitə və Yeni Texnologiyalar naziri Rövşən Məmmədov qeyd edib ki, 2015-ci il sentyabr ayının 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə "Naxçıvan" Universitetində Çin Xalq Respublikasının "Huawei" şirkəti tərəfindən yaradılan İKT Mərkəzinin açılışı olub. Burada "Huawei" Azərbaycan Məhdud Məsuliyyətli Cəmiyyətinin baş icraçı direktoru tərəfindən Ali Məclis Sədrinə "Huawei" şirkətinin rəhbərinin məktubu təqdim edilib. Məktubda muxtar respublikanın universitetlərində informasiya texnologiyaları ixtisaslarında təhsil alan tələbələrin "Huawei" şirkətinin Çinin Şenjen şəhərindəki yay təlim mərkəzində təcrübə keçməsini nəzərdə tutan "Gələcəyin İKT sahəsindəki toxumları" adlı proqram-layihənin həyata keçirilməsi təklif edilib. Ali Məclis Sədrinin tələbələrin təlimlərdə iştirakının təşkil edilməsi barədə Rabitə və Yeni Texnologiyalar Nazirliyinə verdiyi tapşırığa uyğun olaraq "Huawei" şirkəti ilə 5 il davam edəcək layihənin icrasına start verilib. Belə ki, 2016-cı ildə 6, 2017-ci ildə 12, 2018-ci ildə 5, 2019-cu ildə isə 7 tələbənin şirkətin ikihəftəlik yay təlim məşğələlərində təcrübə keçməsi təmin edilib.

Vurğulanıb ki, "Huawei" şirkəti Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə 17 ildən artıqdır, telekommunikasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq edir və Naxçıvanda həyata keçirilən bir sıra sosial layihələrdə yaxından iştirak edir. Qarşılıqlı əməkdaşlıq muxtar respublikada telekommunikasiya sisteminin ən müasir informasiya texnologiyaları əsasında qurulması ilə yanaşı, burada təhsilin inkişafına da öz töhfəsini verir.

Qeyd olunub ki, Rabitə və Yeni Texnologiyalar Nazirliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamı ilə qarşıya qoyulan vəzifələrin icrası sahəsində səylərini bundan sonra daha da artıracaq, yüksəkixtisaslı kadrların hazırlanması prosesində yaxından iştirak edəcəkdir. Həmçinin Ali Məclis Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə muxtar respublikada icrasına başlanmış startap hərəkatında real nəticələr əldə edilməsi üçün yaradılmış bütün imkanlardan maksimum istifadə edəcəkdir.

Sonra Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları kafedrasının müdiri, dosent Məftun Əliyev "Huawei" şirkətində tələbələrin təcrübə keçmələrinin əhəmiyyətindən danışıb. Builki təlimlərdə iştirak etmiş tələbələrdən İnci Hüseynli, Elvin Cabbarlı, Anar Rəsulzadə, Elvin Salayev, Roza Ağayeva hazırladıqları təqdimatlar vasitəsilə Çinə səfərlərinin təəssüratları və ən müasir informasiya texnologiyaları haqqında əldə etdikləri biliklər barədə görüş iştirakçılarına məlumat verib, yaradılan imkanlara görə muxtar respublika rəhbərinə minnətdarlıqlarını ifadə ediblər.

Bildirilib ki, Çin Xalq Respublikasında istehsalat təcrübəsi keçən tələbələr proqram çərçivəsində əvvəlcə Pekində Çin mədəniyyəti ilə tanış olublar. Sonra təcrübəçi tələbələr "Huawei" şirkətinin Şenjen şəhərində yerləşən baş ofisinin treninq mərkəzində müasir texnologiyaların öyrənilməsi və istehsalı üzrə təlimlər keçiblər. Təcrübə kursu şirkətin ayrı-ayrı peşəkar mütəxəssisləri tərəfindən aparılıb, tələbələrə sertifikatlar və hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Rəsmi statistikanın inkişafı üzrə dövlət proqramının icrası davam etdirilir

*Muxtar respublikada artan əhali tələbatına uyğun olaraq həyata keçirilən mühüm tədbirlər, yaradılan istehsal və xidmət sahələri, sosial sahədə əldə olunan uğurlar iqtisadiyyatın şaxələndirilməsini, davamlı və dinamik inkişafı təmin edib.*

İqtisadi və sosial sahələrdə baş verən dəyişikliklərin qeydə alınaraq təhlili və müəyyən edilmiş sosial-iqtisadi siyasət kursuna uyğun çevik idarəetmənin təmin edilməsi üçün dəqiq və dolğun statistik məlumatlara olan tələbat rəsmi statistikanın təkmilləşdirilməsini də şərtləndirir.

Bu istiqamətdə muxtar respublikada rəsmi statistikanın inkişaf etdirilməsi və statistika sahəsində işlərin daha da təkmilləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 2 mart tarixli Sərəncamı ilə "2018-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı" təsdiq edilib.

Dövlət proqramının tədbirlər planı 5 bölmədən ibarətdir. Bölmələrə sosial statistika, iqtisadi statistika, çoxsahəli statistika, rəsmi statistika materiallarının istehsalının hüquqi, inzibati və informasiya təminatı, maddi-texniki bazanın və kadr potensialının gücləndirilməsi daxildir. 29 tədbiri özündə birləşdirən tədbirlər planının aidiyyəti strukturlarla əlaqələndirilməsi və icrasının yekunu Dövlət Statistika Komitəsinə tapşırılıb.




Müvafiq dövlət proqramının icrası istiqamətində 2018-ci ildə nəzərdə tutulmuş tədbirlər tam icra olunub, 2019-cu il ərzində təqvim üzrə yerinə yetiriləcək tədbirlərin icrası istiqamətində işlər davam etdirilir.

Cari ilin ötən dövründə dövlət proqramının müvafiq bəndinin icrası istiqamətində Dövlət Statistika Komitəsində Statistik Məlumatlar Sistemi yaradılıb. 2018-ci ildən icrasına başlanılmış Statistik Məlumatlar Sisteminin elektron bazası və proqram təminatının hazırlanması və tətbiqi istiqamətində mühüm işlər görülüb, iyun ayının 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə müvafiq sistemin təqdimatı keçirilib.

İstifadəyə verilmiş yeni sistemdə tətbiqi server avadanlıqları, serverlər üçün əməliyyat və təhlükəsizlik sistemləri, köməkçi avadanlıqlar və lisenziyalar, eləcə də statistika idarələri və internet şəbəkəsi üzərindən müvafiq lokal və virtual arabağlantılar qurulub. İqtisadi fəaliyyətin 18 istiqaməti üzrə 259 adda statistik hesabatın proqram təminatı hazırlanıb.

Statistik Məlumatlar Sistemində rəsmi statistika hesabatları təqdim edən müəssisə və təşkilatların tanınması və qeydiyyatı bölməsi yaradılıb, onların təqdim edəcəyi hesabatların sayı və vaxtı müəyyənləşdirilib. Sistemin əsas üstünlüyü proqramların muxtar respublikanın statistika işçiləri tərəfindən idarə olunması və təsərrüfat subyektləri tərəfindən daxil edilmiş hesabatlar üzrə məlumatların elektron bazasının yaradılmasıdır.

Statistik Məlumatlar Sistemində proqram təminatının normal fəaliyyəti üçün hesabatların elektron təqdimat sisteminin təsnifatlarının və köməkçi məlumatlarının idarə edilməsi alt bölməsi yaradılıb. Alt bölmədə istifadəçilərin qeydiyyat məlumatı, statistik hesabatların təsnifatı, statistik hesabatların təqvimi, rəsmi statistikanın sahələri, hüquqi və fiziki şəxslərin reyestri öz əksini tapıb. Proqram təminatının idarə olunması məqsədilə komitə aparatında kadr potensialının gücləndirilməsi istiqamətində müəyyən hazırlıq işləri görülüb.

Statistik Məlumatlar Sistemində proqram təminatı Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet saytının *(www.statistika.nmr.az)* "Elektron xidmətlər" bölməsinin alt başlığı olan "Rəsmi statistik hesabatların təqdim edilməsi" menyusu ilə əlaqələndirilib.

Rəsmi statistikanın inkişafı istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikada elektron statistikanın inkişafına və rəsmi statistika materiallarının istehsalı proseslərinin səmərəliliyinin yüksəldilməsinə, iqtisadiyyatın strukturunun və sahələrarası əlaqələrin təhlilinə imkan verən yeni statistik məlumatların əldə edilməsinə şərait yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

# Naxçıvan dünən

## Uzaqda qalan kənd

Yurdçu kəndi ucqarda deyil. Amma uzun illər gözdənuzaq olub, könüldən də iraq. Bunun da öz səbəbi var. İriləşdirilmiş təsərrüfatlar təşkil ediləndə yurdçuluların təsərrüfatı Qarabağlar kəndindəki kolxozda birləşdirildi. Sonralar isə K.Marks adına sovxoza çevrildi. Elə bununla da onların gözdən uzaqlığı başlandı.

Əslinə baxanda Yurdçu kəndi düz yolun üstündədir. Amma rayondan təsərrüfata gələn rəhbər işçilər həmişə “lövbəri” Qarabağlarda salırdılar. Bir dəfə olsun, bu kəndin taleyi, adamların sosial həyatı ilə maraqlanan olmazdı. Əvvəllərdə kənddə olub-qalan nə vardısa, onlar da dəyərdən düşdü. Özü yaxında yerləşsə də, Yurdçu uzaqda qalmış kənd kimi yaddan çıxdı.

Buna görə də kənddə ərsəyə çatan cavanlar respublikanın, Rusiyanın şəhərlərinə axışdılar. Kəndin günləri yaman acınacaqlı idi. Sovxozda çalışanlar yalnız tütünçü qızgəlinlər, bir də beş-altı nəfər əldən-ayaqdan düşmüş, ora-bura getməyə imkanı olmayan kişilər idi.

Tütün yurdçulular üçün əsas dolanışıq vasitəsi idi. Çünki onlar az-çox nə alsa idilər, o da tütünün hesabına idi. Kənddə xidmət adına, demək olar ki, heç nə yoxdur. Sosial məsələlər həll edilmir. Rayondan, eləcə də kəndin daxil olduğu sovxozdan qayğı əvəzinə hökmlər, məzəmmətlər görürdülər.

Amma yurdçulular ümidlərini də itirməyiblər. Elə bil ürəklərinə damıb ki, nə vaxtsa onlar da qayğı ilə əhatə ediləcək, həyatlarında dönüş yaradacaqlar.

**“Şərq qapısı” qəzeti**
**1992-ci il**

# və bu gün

## Yurdçu kəndinin bugünkü mənzərəsi:
### *rahat yol, müasir məktəb, yeni kənd və xidmət mərkəzləri*

*Bu məqalə 1992-ci ildə “Şərq qapısı” qəzetində dərc olunub. 27 il bundan öncə dərc olunan həmin yazını oxuyanda düşünürsən ki, insan möcüzələr yaratmağa qadirdir. Bunun üçün gərək vətənpərvərlik, qurub-yaratmaq istəyi, əzm və fədakarlıq olsun.*

Əvvəllər bu yaşayış məntəqəsi də köhnə, yararsız məktəbi, sosial obyektləri, tozlu, torpaqlı, palçıqlı küçələri, uçuq-sökük divarları, həyətləri olan bir yer idi. Ancaq həmin yazının sonunda qeyd olunduğu kimi, yurdçulular heç vaxt ümidlərini itirmədilər. İllər keçdikcə bu ümid özünü doğrultdu və nəticə olaraq bu gün Yurdçu kəndi müasir görünüşü ilə buraya yolu düşən hər kəsin diqqətini çəkir. Belə ki, son illərdə muxtar respublikada aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərindən Yurdçu sakinləri də bəhrələniblər. 2016-cı ildə müasir tələblərə cavab verən kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası üçün binalar tikilib, orta məktəb binası əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Kənddaxili yollar genişləndirilib, asfalt örtük salınıb. Kənddəki bütün evlər mavi yanacaqla, fasiləsiz elektrik enerjisi ilə təmin edilib.

Kənd ağsaqqalı Əbülfəz Əliyev deyir ki, yurdçulular, əsasən, əkinçilik və heyvandarlıqla məşğul olurlar. Əvvəllər onlara olan diqqətsizlik ucbatından kənd sakinlərinin əlləri torpaqdan soyumuşdu. Suvarma suyu və texnika sarıdan çətinliklərlə üzləşdikləri üçün torpaqların çoxu əkilmirdi. Bütün bunların hamısı geridə qaldı. Əbülfəz Əliyev bildirdi ki, bu gün kəndimizin torpaq mülkiyyətçiləri istədiyi kimi əkir-becərir. Bir vaxtlar dolanışıq ucbatından kəndi tərk edən sakinlər də öz yurdlarına qayıdıb, burada öz təsərrüfatlarını yenidən canlandırıblar. Sakinlər onlara göstərilən diqqət və qayğı müqabilində daha həvəslə çalışır, daha çox məhsul əldə edir və öz təsərrüfatlarını ildən-ilə daha da genişləndirirlər. İnsanların rahat yaşayışına hesablanan tədbirlər sakinlərin qurub-yaratmaq əzmini artırır. Ali Məclisin Sədri bir neçə dəfə Yurdçu kəndində olub, kənddə subartezian quyusu istifadəyə verilib, kəhrizlər bərpa edilib, mənzillər telefonlaşdırılıb. Ötən günlərdə kənddə qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsi də dövlətimiz tərəfindən insan amilinə göstərilən qayğının bariz nümunəsidir. Artıq Yurdçuda insanlar rahat yaşayır, məskunlaşma artır. Yaradılan bu abadlığı qoruyub saxlayacaq, muxtar respublikamızın inkişafına töhfələr verəcəyik.

1995-ci ildən sonra muxtar respublikada təhsilə, gələcək nəsillərə göstərilən qayğıdan Yurdçu kənd tam orta məktəbinə də pay düşüb.

Kənd tam orta məktəbinin müəllimi Qadir Məmmədov:

– Dövlətimiz tərəfindən göstərilən qayğı kollektiv qarşısında mühüm vəzifələr qoyur. Biz bu məsuliyyəti öz üzərimizdə hiss edərək hər zaman çalışırıq ki, təhsilli, vətənpərvər gənclər yetişdirilməsinə nail olaq. Arzumuz budur ki, məktəbi bitirən hər bir gənc istər peşə məktəblərində, istərsə də ali və orta ixtisas təhsili müəssisələrində yaxşı oxusun, bir peşə sahibi olsun, vətənpərvər ruhda tərbiyə alsın. Məktəbimizin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Təhsil elə bir sahədir ki, orada geriləməyə heç vaxt yol vermək olmaz. Çünki təhsilin bir il geriləməsi ölkənin gələcək həyatının bir il inkişafdan qalması, ixtisaslı kadrlarla təminatında problemlərin yaranması deməkdir. Ona görə də ölkəmizdə təhsilin inkişafına daim diqqət və qayğı göstərilir, gələcəyimiz üçün etibarlı təminat yaradılır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki: “Dövlət haradan olursa-olsun, nədən olursa-olsun, kasıb təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir”. Bu gün Yurdçu kəndində müasir tədrisin tələblərinə cavab verən məktəb binasının tikilib şagird və müəllimlərin istifadəsinə verilməsi də ulu öndərimizin tövsiyələrinin həyata keçirilməsinin nəticəsidir”.***




Söhbətə qoşulan Yurdçu kənd tam orta məktəbinin direktoru İlham Abbasov isə qeyd edir ki, əvvəllər məktəbimizdə vəziyyət çox acınacaqlı idi. Neft sobalarının tüstüsündən şagirdlər sinif otaqlarında otura bilmirdilər. Yağış yağan zaman yararsız halda olan şiferlərdən sızan su sinif otaqlarına tökülürdü. Otaqları şagirdlərdən çox su damcılarının qarşısını almaq üçün qoyduğumuz qab-qacaq, vedrələr bəzəyirdi. Qış aylarında isə vəziyyət daha da ağırlaşırdı. Sinif otaqlarında istilik təminatı yox dərəcəsində idi. Bu gün Yurdçu kənd tam orta məktəbinin binası heç də ali məktəb binalarından geri qalmır.

İlham müəllimin sözlərinə görə, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan məktəb 270 şagird yerlikdir. Müasir tədris avadanlıqları və zəruri inventarlarla təchiz olunan binada 3-ü elektron lövhəli olmaqla, 15 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter və müəllimlər otaqları, kitabxana, bufet və idman zalı vardır. Kompüter otağında internetə çıxışı olan 19 kompüter şagirdlərin istifadəsinə verilib. Məktəbin kitabxana fondunda 4 minə yaxın dərslik və bədii ədəbiyyat vardır. Təhsil ocağında yeni təlim metodlarından geniş istifadə edilir, fənn kurikulumlarının tətbiqinə böyük önəm verilir, viktorinalar, müsabiqələr və bilik yarışları keçirilir.

Kəndin xidmət mərkəzinin qarşısında kənd sakini Şükür Rüstəmovla qarşılaşırıq. Deyir ki, Yurdçuda kompleks quruculuq işləri aparılarkən xidmət mərkəzi də istifadəyə verilib. Burada ərzaq və sənaye malları mağazası, ət satışı yeri, bərbərxana və qadın gözəllik salonu fəaliyyət göstərir. Sevinirik ki, bu gün kəndimizin öz mağazası var. Gördüyünüz kimi, kənddaxili yollar da asfaltlanıb. Yaxşı yadımdadır ki, əvvəllər kəndin küçələrində palçıqdan hərəkət etmək mümkün deyildi.

Şükür Rüstəmov onu da bildirdi ki, burada fəaliyyət göstərən qurumların – inzibati ərazi dairəsi üzrə nümayəndəliyin, bələdiyyənin, mədəniyyət evinin, kitabxananın, polis sahə və baytarlıq məntəqələrinin, poçt bölməsinin kənd mərkəzində yerləşdirilməsi əhalinin rahatlığını tam təmin edib. Kənd sakinləri hansısa problemini həll etmək üçün artıq rayon mərkəzinə getmək məcburiyyətində deyil. Onların bütün problemləri elə bu kənd mərkəzində həll olunur.

Kənd sakini, ailə təsərrüfatı başçısı Vilayət İbrahimov uzun müddətdir ki, taxılçılıqla məşğul olur. Həmsöhbətim deyir ki, bu il Yurdçu kəndinin taxılçıları 104 hektar sahədə buğda, 56 hektarda isə arpa əkini aparıblar. Artıq taxıl tədarükü başa çatıb. Torpaq adamlarının zəhməti hədər getməyib, sahələrdən bol məhsul götürülüb.

Vilayət İbrahimov bu il daha çox sahədə əkin aparıb. Belə ki, o, bostan bitkiləri, kartof, yonca da əkib. “Suvarılan torpaqlar bol məhsul deməkdir”, – deyən müsahibim bildirir ki, torpaqların su təminatının yaxşılaşdırılması, xüsusilə istifadəyə verilən qapalı suvarma şəbəkələri əkinçiliyin inkişafına səbəb olub. Kəndin torpaq mülkiyyətçiləri, təsərrüfat adamları üçün yaradılan şəraitə görə minnətdaram.

*Bəli, zəhmətkeş, əməksevər yurdçulular bu gün artıq daha həvəslə, əzmlə qurub-yaradırlar. Çünki illər öncə onlar sabaha inamla, ümid dolu baxıblar və bu gün bu ümidin doğrulduğunun şahididirlər. Bu həm də muxtar respublikada yaşayıb-yaradan hər bir insanın sabaha inamını ifadə edir.*

**Pərviz HACILI**

# Əməksevərlik sevgisi...

*2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan olunması Naxçıvanda kollektiv işə, ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaranmasına, mövcud olanların isə daha da inkişaf etməsinə təkan verir. Belə təsərrüfatlarda istehsal olunan məhsulların bazarlarda rəğbətlə qarşılanması, alıcı razılığına səbəb olması günün reallığıdır. Babək rayonunun Kültəpə kəndində “Gündüz” əmtəə nişanı ilə istehsal olunan süd məhsulları sexinə rəhbərlik edən Gündüz Məmmədov da dövlət qayğısından bəhrələnən təsərrüfat başçılarından biridir.*






Gecənin alatoranlığı yerini Günəşin yenicə qızaran şüalarına verir. Axşamdan göyün üzünə səpələnən ulduzlar Günəşə məğlub olaraq səmada öləziyir. Bu yerlərdə dan yeri sökülən kimi təsərrüfat işlərinə başlanılır. Gündüz də elə günün bu saatlarında yuxusuna “haram qatıb” kövşənə gəlməli, mal-qarasını yerbəyer etməli və evə qayıtmalıdır. İşləri çoxdur. Axşamdan Kültəpə, Kərimbəyli, Qahab, Zeynəddin və Naxçıvan şəhərindəki ticarət obyektlərindən sifarişlər qəbul edib. Sifariş edilən məhsullar gün ərzində qatıq və ayranı həmin ünvanlara çatdırmalıdır.

Gündüz səhər süfrəsində zəhmətlə qazanılan halal nemətlərdən nuş edib iş başına yollanır. Bu işdə isə ailənin hər bir üzvü səfərbərdir. Belə ki, təsərrüfatda bəslənilən 20-yə yaxın iribuynuzlu mal-qaranın südü axşamdan soyuducuda yığılıb. Qız-gəlin xüsusi qablarda yığılan südü istehsal sahəsinə daşıyır. İstehsal sahəsi isə Gündüzün həyətinin aşağı hissəsində yerləşir. Özünün dediyinə görə, dörd il bundan əvvəl evdə ağsaqqal, ağbirçəklə oturub məsləhətləşib və belə qərara gəlib ki, süd məhsullarının istehsalı ilə məşğul olmaq üçün hər cür şərait var və bu şəraitdən yararlanmaq lazımdır. Əvvəla, həyətindəki mal-qaranın baş sayını artırıb. Daha sonra müvafiq dövlət orqanlarına layihəsini təqdim edib və onun bu ideyası müsbət qarşılanıb. Bununla da Gündüz elə həmin il 26 min manat dövlət maliyyə dəstəyi alaraq istehsal sahəsini qura bilib.

Müəssisəyə daşınan süd istehsal üçün hazırlanır. Alınan qatıq və ayran 250 və 500 qramlıq plastik taralara yığılır və bu işlərin hər biri avtomatlaşdırılmış qaydada, əl dəymədən, sanitar-gigiyenik tələblərə uyğun həyata keçirilir. Nəticə olaraq istehlakçıya təqdim edilən hər bir məhsulun keyfiyyəti istehsalçının baş ucalığı deməkdir. Deməli, keyfiyyət amili əsasdır. Gündüz şor, kəsmik, lor da istehsal etmək fikrindədir. Payız aylarında isə qovurma istehsalı üçün əlavə dövlət maliyyə dəstəyi almağı düşünür. Bu məqamda qeyd edək ki, sahibkar istifadə olunan plastik taraları daha əvvəlki kimi qonşu ölkələrdən gətirmir. Düzdür, dövlət tərəfindən ailə təsərrüfatı rəhbərlərinə, sahibkarlara xaricdən gətirilən hər bir məhsul üçün xüsusi güzəştlər tətbiq olunub, onlar rüsumlardan azad ediliblər. Amma Nehrəm kəndində sahibkar Rafiq Əliyev tərəfindən plastik taraların istehsalı sahəsinin yaradılması ilə xaricdən asılılıq aradan qalxıb. İndi bu qabların daha ucuzu və daha keyfiyyətlisi Nehrəmdə istehsal olunur. Süd istehsalı ilə məşğul olanlar istənilən vaxt Nehrəmə üz tuta bilərlər.

...Sifarişlər saylarına görə yığılaraq sahibkarın təsərrüfatdan qazandığı gəlir hesabına aldığı yeni avtomobilə yüklənir. Sükan arxasında isə Gündüzün böyük oğlu əyləşib. Bir azdan o, yola düşərək ticarət obyektlərinin sifarişlərini onlara çatdıracaq. Gündüz özü isə günün ikinci yarısında qardaşı ilə birgə əkin sahəsinə yollanır. Bu il 2 hektar sahədə yonca əkib. Artıq biçin vaxtıdır. Güman edir ki, 250-300 yonca kipi çıxacaq. Bununla da təsərrüfatdakı mal-qaranın yeminin bir hissəsini tədarük etmiş olacaq.

Gündüz Babək rayonundakı zəhmətkeş, əməksevər ailə təsərrüfatı başçılarından, sadəcə, biridir. O, bu işə özü və ailəsi ilə birgə, necə deyərlər, can qoyur və nəticədə, qazanan da elə onların özü və həm də istehlakçılardır. Gündüz və onun ailəsi işdən qorxmur, torpağı sevir, zəhməti sevir, gün-güzəranlarını da elə bu sevgidən qurublar. Əməksevərlik sevgisindən... Belə bir nəticəyə gəlmək olar ki, zəhmətkeş insansansa, ailən işgüzardırsa və ən əsası dövlət bu cür əlverişli sahibkarlıq mühitini təmin edirsə, bu yol davamlı olacaq. Gündüz kimilərin də sayı getdikcə artacaq.

**Muxtar RZAZADƏ**

*Hərb tariximizdən*

## Naxçıvan xanları nəslindən olan görkəmli sərkərdə Hüseyn xan Naxçıvanski

*Hələ qədim dövrlərdən Azərbaycanda elə nəsillər, elə qəbilələr olub ki, onlar öz döyüşkənliyi ilə təkcə Qafqazda yox, hətta Avropada da tanınıblar. Tarixi sənədlər göstərir ki, onların arasında yüksək rütbəli hərbçilər – generallar da olub. Belə şəxsiyyətlərdən biri də Naxçıvan xanları sülaləsindən olan, Azərbaycanın və Rusiyanın hərb tarixində mühüm rol oynamış general Hüseyn xan Naxçıvanskidir. O, milli hərb tariximizə 6 general bəxş edən Kəngərli nəslindəndir.*

Hüseyn xan hamıdan fərqli olaraq nəinki öz şöhrətli nəslinin ənənələrini zənginləşdirmiş, həm də igidliyi ilə sonrakı nəsillər üçün unudulmayacaq yüksək qəhrəmanlıq nümunəsi qoyub getmişdir. Naxçıvanda doğulan, ilk təhsilini burada alan Hüseyn xan faciəli bir tale yaşamış, ömrünün qalan hissəsini isə qürbətdə – Rusiya hərb elminə həsr etmiş çox mahir bir hərbçi olmuşdur.

Atası general II Kalbalı xan oğlunu hərbçi kimi görmək istədiyindən Hüseyn xanı imperatorun himayəsində olan və Rusiyanın ən mötəbər, zadəgan oğullarının təhsil aldığı Peterburqdakı Paj korpusunda oxumağa göndərmiş, həmin məktəbi əla qiymətlərlə bitirdikdən sonra rus ordusunda hərbi xidmətə başlamışdır. Süvari alayındakı 20 illik xidməti zamanı Hüseyn xan kornetdən ən böyük hərbi rütbəyə, əlahəzrətin general-adyutantı rütbəsinədək yüksəlmişdir. Rus-yapon savaşında qafqazlılardan təşkil olunmuş 2-ci Dağıstan süvari alayına, müharibədən sonra isə rus ordusunun qocaman və şöhrətli alaylarına – Nijeqorodsk draqun və leyb-qvardiya süvari alaylarına rəhbərlik etmişdir. I Dünya müharibəsi ərəfəsində Hüseyn xan 2-ci süvari diviziyasının komandiri təyin edilmiş, ona general-leytenant rütbəsi verilmişdir. Qafqaz müsəlmanlarından təşkil edilmiş "Vəhşi diviziya" kimi tanınan diviziya və polyaklardan təşkil olunmuş süvari diviziya ona tabe olmuşdur.

Hüseyn xan Naxçıvanskinin döyüşlərdə göstərdiyi şücaətə görə aldığı orden və medalların sayı-hesabı yox idi. O, çar Rusiyasının 20 mükafatı və 9 xarici ordenlə təltif olunmuşdur. Hüseyn xan Naxçıvanski Rusiya ordusunun sayca az olan o generallarından idi ki, 1917-ci il inqilabını tanımadı və son günə qədər taxt-taca sadiq qaldı. O, 1919-cu ildə Petroqradda bolşeviklər tərəfindən həbs olunmuş və güman edilir ki, güllələnmişdir. Dəfn yeri məlum deyil. Tarix bu əfsanəvi sərkərdəni unutmadı. Rus və Azərbaycan xalqlarının xatirə yaddaşında bu günədək əsl qeyrət, hünər və sədaqət rəmzi



kimi qalan Hüseyn xan Naxçıvanskinin şərəfli adı daim yaddaşlarda yaşayır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılan "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində daimi ekspozisiyası formalaşdırılarkən bu görkəmli hərbi sərkərdənin də xatirəsini yaşatmaq məqsədilə onun həyatı və hərbi fəaliyyətinə həsr olunmuş guşə yaradılmışdır. Bu gün muzeydə Hüseyn xan Naxçıvanskiyə aid maraqlı fotolar, arxiv materialları və sənədli məlumatlar nümayiş olunur.

Hüseyn xan Naxçıvanskinin hərbi fəaliyyəti ilə bağlı fotolar – "Süvari alayının leyb-qvardiyasının zabitləri və alayın komandiri Hüseyn xan Naxçıvanski", "Dağıstan süvari alayının leyb-qvardiyasının zabitləri və alayın komandiri Hüseyn xan Naxçıvanski doğma polku ilə tanış olarkən", "Süvari alayının zabitləri parad formasında, I cərgədə Hüseyn xan Naxçıvanski", "Hüseyn xan Naxçıvanskinin rəhbərliyi altında hücumlara həsr olunmuş Ümumdünya Poçt İttifaqı marka"sının fotosurəti, rəssam Rəfael Qədimovun yağlı boya ilə çəkdiyi Hüseyn xan Naxçıvanskinin portreti və digər qiymətli, nadir eksponatlar ekspozisiyada öz yerini tapmışdır.

Görkəmli sərkərdənin ailə üzvlərinə aid materiallar da muzeydə nümayiş olunur. Bu materiallardan Hüseyn xanın atası II Kalbalı xan Naxçıvanskinin, bacısı Zərrintac xanımın, oğlu Nikolay Naxçıvanskinin fotoları, eyni zamanda müəllifi Müsəllim Həsənov olan 117 səhifədən ibarət "Qərib məzarlar" adlı kitab-albomu da qeyd etmək olar. Kitab-albomda Hüseyn xanın qızı Tatyana Hüseynova Martinovanın qəbrinin təmirdən sonrakı fotosu və onun haqqında qısa məlumat verilmişdir. Onun qəbri Azərbaycanın Fransadakı səfirliyi tərəfindən təmir edilib.

Görkəmli rus qafqazşünası, professor Rudolf İvanovun Naxçıvanski generalları sülaləsinin nümayəndəsi Hüseyn xan Naxçıvanskiyə həsr etdiyi "Əlahəzrətin general-adyutantı" kitabı da guşədə yer alıb. Əsərdə Hüseyn xan Naxçıvanskinin 34 illik hərbi fəaliyyəti ilə sıravi hərbçidən general-adyutant səviyyəsinə yüksəlməsinin səbəbləri ət-




raflı şəkildə açıqlanmışdır.

"Əlahəzrətin general-adyutantı" kitabı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyəsi ilə Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmuşdur. Ekspozisiyada həmin kitabdan bir çox çıxarışlar da öz əksini tapmışdır. Bu çıxarışlarda Hüseyn xanın çar Rusiyasının ordusunda xidmətinin 15 illiyinin tamam olması münasibətilə 3-cü dərəcəli "Müqəddəs Anna" ordeni ilə mükafatlandırılması və İran şahının təqdimatı ilə ulduz və almazlarla bəzədilmiş İranın 2-ci dərəcəli "Şir və Günəş" ordenini qəbul etmək və yaxasında daşımaq ixtiyarının verilməsi ilə bağlı yazılar qeyd olunmuşdur.

Rusiya imperiyasında böyük nüfuz sahibi olmuş görkəmli azərbaycanlı sərkərdə Hüseyn xan Naxçıvanskinin 34 illik hərbi fəaliyyəti haqqında çəkilmiş "Qayıdış" sənədli filminin videoyazısı da muzeydə nümayiş olunan eksponatlar sırasındadır. Film Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə lentə alınmışdır. Çəkilişləri Naxçıvanda, Bakıda, Sankt-Peterburqda aparılan film Azərbaycan və rus xalqları arasındakı mədəni və tarixi bağların keçmişi, bu günü baxımından çox əhəmiyyətlidir.

Xatirəsi bu gün də Rusiyada və Azərbaycanda əziz tutulan Hüseyn xan Naxçıvanski ona görə dəyərli və qiymətlidir ki, o, böyük sərkərdə olmaqla yanaşı, eyni zamanda Vətəninə bağlı cəsur insan və sədaqətli əsgər idi. Belə insanlar isə xatirələrdə yaşamalı, adları daim xatırlanmalıdır: dünənimiz, bu günümüz və gələcəyimiz üçün.

*Hüseyn xan Naxçıvanski irsinin yaşadılmasında, gələcək nəsillərə çatdırılmasında, gənclərdə hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşmasında "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi də öz fəaliyyətini uğurla davam etdirir. Tariximiz böyük bir məhəbbətlə qorunur, bu tarixin şanlı səhifələrinə şərəflə, ləyaqətlə, şücaətlə düşən görkəmli şəxsiyyətlərimizin adı daim yaşadılır. Belə ki, muzeydə Naxçıvan xanlığı ilə bağlı və Kəngərli nəslinin nümayəndələrinə həsr olunmuş tədbirlər təşkil edilir, sərgilər hazırlanır, açıq dərslər keçirilir. Müxtəlif dövlət təşkilatları, ali və orta ixtisas təhsili müəssisələrinin kollektivləri muzeyi ziyarət edir və Hüseyn xan Naxçıvanski ilə yanaşı, Kəngərli nəslinin yetişdirdiyi digər generallara həsr edilmiş guşələrlə tanış olurlar.*

**Zülfiyyə ƏLİYEVA**
***"Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin baş fond mühafizi, elmi işçi***

## Arxeoloji abidəyə ekskursiya təşkil olunub

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə nazirliyin strukturuna daxil olan mədəni-maarif müəssisələrinin gənc əməkdaşları üçün Naxçıvantəpə arxeoloji abidəsinə ekskursiya təşkil olunub.*



Ekskursiya zamanı AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim dövr arxeologiyası şöbəsinin müdiri, Naxçıvan arxeoloji ekspedisiyasının rəhbəri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev gənclərə arxeoloji ekspedisiyalarla bağlı məlumat verib. Bildirib ki, son illərdə Naxçıvan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilmiş maddi-mədəniyyət nümunələrini araşdıran arxeoloqlar bu ərazilərdə 300-500 min il bundan əvvəl ən qədim insanların məskən saldıqlarını təsdiq ediblər. Bu yaşayış məskənləri, əsasən, Naxçıvanın təbii zənginliklərə malik çay vadilərində, dağ yamaclarında, eyni zamanda yaşı minilliklərlə ölçülən mağaralarda olub. Arxeoloji qazıntılar zamanı qədim yaşayış yerlərindən aşkar olunan əmək alətləri, maddi nümunələr ərazinin nəinki Azərbaycanın, hətta dünyanın ən qədim yaşayış yerlərindən biri olduğunu göstərir. Naxçıvançayın sağ sahilində, dəniz səviyyəsindən 853 metr yüksəklikdə yerləşən Naxçıvantəpə arxeoloji abidəsi də Naxçıvanın qədim tarixini özündə əks etdirən yaşayış yerlərindən biridir.

Qeyd edilib ki, bu il iyul ayının 1-dən qədim yaşayış məskənində arxeoloji qazıntılar aparılmağa başlanılıb. Burada tədqiqatların aparılması Cənubi Qafqaz mədəniyyətləri ilə Yaxın Şərq mədəniyyətləri arasındakı əlaqələrin aşkara çıxarılmasında və Naxçıvan tarixinin öyrənilməsində böyük rol oynayır. Tədqiqatlar zamanı torpaq laylarının altından yaşayış evlərinin qalıqları, obsidian parçaları, ocaq yerləri, boyalı basma naxışlı keramika nümunələri və müxtəlif əmək alətləri aşkar olunub.

Ekskursiya zamanı gəncləri maraqlandıran suallar ətraflı cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Ekoloji monitorinqlər keçirilib

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən muxtar respublika ərazisində ekoloji monitorinqlər aparılıb. Monitorinqlərdə iaşə məntəqələrində, xidmət və təsərrüfat sahələrində ekoloji nəzarət həyata keçirilib.

Əhalinin istifadə etdiyi içməli suların ekoloji-sanitar təmizliyinin yoxlanılması məqsədilə müəyyən edilmiş mənbələrdən 35 sayda su nümunəsi götürülüb, fiziki və kimyəvi xassələrini öyrənmək üçün 110 analiz-təhlillər aparılıb. Aparılan ekoloji monitorinqlərin nəticəsi bir daha göstərib ki, içməli sular ekoloji, sanitar normalara cavab verir, istifadə üçün tam yararlıdır.

Ekoloji monitorinqlər zamanı ətraf mühiti normadan artıq çirkləndirən subyektlər aşkar edilməyib. Muxtar respublika ərazisindəki mövcud ekoloji durum əlverişli olaraq qiymətləndirilib.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Peter Teys: Naxçıvan həm təbiətin, həm də insan əllərinin yaratdığı möcüzədir

*Ötən günlərdə "Bakı Prosesi" çərçivəsində paytaxt Bakı şəhəri ilə yanaşı, Oğuz, Şəki və Qəbələ rayonlarında IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi təşkil edilmişdi. Həmin tədbirin iştirakçısı, "Şərq qapısı" qəzetinin oxucularına yaxşı tanış olan amerikalı ekspert, jurnalist Peter Teyslə görüşüb həmsöhbət olduq.*

***– Sizinlə yenidən görüşməyimizə çox şad olduq. Siz Naxçıvanı yaxşı tanıyırsınız və bir neçə dəfə muxtar respublikada olmusunuz…***

– Bəli, mən Naxçıvanda dəfələrlə olmuşam. Burada keçirdiyim xoş günləri çox yaxşı xatırlayıram. Muxtar respublikada gənclərin multikultural ənənələrə dərindən bələd olmaları, onların bu ruhda tərbiyə edilmələri üçün çox yaxşı təcrübə mövcuddur. Bunu Naxçıvana səyahət edən hər bir ekspert təsdiq edə bilər.

Onu da deyim ki, "Şərq qapısı" qəzeti, eləcə də oradakı digər dostlarımla əlaqələrim vasitəsilə Naxçıvan Muxtar Respublikasının inkişafını və burada həyata keçirilən



iqtisadi, sosial və humanitar məzmunlu tədbirləri yaxından izləyirəm. Elə bu tədbirdə də dünyanın 5 qitəsinin və 40-a yaxın ölkəsindən gəlmiş gənclərə Naxçıvan barədə xeyli məlumat vermişəm.

***– Naxçıvanlı gənclərin fəallıqları sizə necə təəssürat bağışlayır?***

– İlk olaraq Naxçıvan gənclərinin humanitar sahələrdəki fəallıqlarını xüsusilə qeyd edə bilərəm. Bilirsiniz, elm, təhsil, turizm və idman kimi sahələrdə naxçıvanlı gənclərin uğurları böyükdür. Qəzetiniz və sosial şəbəkələr vasitəsilə son dövrlərdə Naxçıvanda keçirilən beynəlxalq şahmat tədbirləri barədə məlumatları, buraya gələn yüksək səviyyəli qonaqların, xarici diplomatların, turistlərin təəssüratlarını maraqla oxuyuram. Bu, mənə böyük zövq verir. Naxçıvanın turizm ehtiyatları, tarixi zənginliklərini araşdıran elmi məqalələrin Amerikada dərc edilməsi və burada mənim yazılarıma istinad olunması da məni sevindirir. Sıx əlaqədə olduğum Cənubi Amerika ölkələrindən Naxçıvana maraq göstərən xeyli sayda həmkarım vardır. Elə bu tədbirdə də argentinalı jurnalistlərə Naxçıvanın qədim tarixindən, sosial-iqtisadi inkişafından bəhs etdim. Qarşıdakı illərdə onlarla birlikdə muxtar respublikaya səfər etməyi planlaşdırıram.

***– Yeri gəlmişkən, gələcəkdə naxçıvanlı jurnalistlərlə birgə fəaliyyətə dair hansı planlarınız vardır?***

– Naxçıvanın müasir inkişafı və burada turizmin perspektivləri barədə bu tədbirdə iştirak edən jurnalist və elm adamları ilə fikir mübadiləsi aparmışıq. Həqiqətən də, 30 ilə yaxın bir dövrdə blokadada yaşayan bir diyarın bu şəkildə inkişaf etməsinin möcüzə olduğunu qeyd etmişik. Naxçıvan həm təbiət möcüzəsi, bu gün isə həm də insan əlləri ilə yaradılan möcüzədir. Bu barədə AZƏRTAC-a və Azərbaycan televiziyasına müsahibələrimdə də danışmışam. Önümüzdəki dövrdə Portuqaliyadan olan dostumla Naxçıvanda sənədli film çəkmək, 2020-ci ildə isə Naxçıvan Muxtar Respublikasının son dövrlərdəki hərtərəfli inkişafından bəhs edən kitabımı bitirmək istəyirəm. Bunun üçün müştərək çox iş görməliyik.

***– Müsahibə üçün sağ olun!***

**Əli CABBAROV**

*Əsgər Abdullayev. Yaqin ki, bu ad çoxlarına tanışdır. 15 il Azərbaycan futbolunun flaqmanı hesab edilən “Neftçi”nin formasını geyinən, məşqçi kimi uzun illər ölkənin bir nömrəli komandasını çalışdıran təcrübəli mütəxəssis bundan sonra məşqçilik karyerasını Naxçıvan Muxtar Respublikasında davam etdirəcək. Düzdür, bu, onun diyarımıza ilk iş səfəri deyil. 5 il öncə Birinci Divizionun qalibi olan “Araz-Naxçıvan”ın “sükanı arxası”nda məhz o oturmuşdur. Bu gün həm də Əsgər müəllim üçün özəl gündür. 59 yaşını qeyd edən baş məşqçi ilə söhbətimizdə bir çox məqamlara aydınlıq gətirməyə çalışdıq.*

# Əsgər Abdullayev: “Muxtar respublikada əsaslı futbol ənənəsi var”



***– Sizi Naxçıvanda, “Araz-Naxçıvan”ın “sükanı arxası”nda yenidən görmək çox xoşdur...***

– İkinci dəfə mənə etimad göstərildiyinə görə muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm. Naxçıvan mənim üçün əziz və doğma bir diyardır. Burada “Araz-Naxçıvan”la uğurlara imza atmışam. Harada çalışmağımdan asılı olmayaraq, hər zaman burada mənə göstərilən diqqətin, etimadın həmişə yüksək olduğunu demişəm.

***– Futbol Federasiyasında struktur dəyişikliyindən sonra dəvətiniz reallaşdı. Muxtar respublikanın futbolu barədə nə deyə bilərsiz?***

– Bu gün muxtar respublikada futbolun inkişafı üçün hər bir imkan var. Hər zaman mətbuatdan da maraqlanırdım – yeni stadionlar tikilir, yenidən bərpa olunur. Dövlət futbolun inkişafı üçün şərait yaradıb, bunlardan səmərəli istifadə etmək lazımdır. Ən əsası yeni, istedadlı futbolçular yetişdirmək, onları üzə çıxarmaq lazımdır. Çünki muxtar respublikada əsaslı futbol ənənəsi var. İndi vəzifəmiz yeniyetmə və gənclərin futbola marağını artırmaq, onlara bu yolda bilik və bacarıqlarımızı öyrətmək, düzgün istiqamət verməkdir. Federasiyanın keçirdiyi iclasda da dediyim kimi, bunun üçün hamımız bir olub bizə göstərilən etimadı doğrultmalıyıq.

***– 5 il öncə “Araz-Naxçıvan”ı Birinci Divizionun qalibi etdiniz və Naxçıvan futbolunda bir tarix yazdınız. Azarkeşlər yenidən Əsgər Abdullayevdən çempionluq gözləsinlər?***

– Amma mən belə deməzdim. Bu çempionluqda təkcə mənim payım yox idi. Çempionluğumuzun memarları bizə dəstək olan rəhbərimiz və azarkeşlərimiz idi. Həmçinin bu, futbolçuların, məşqçilər korpusunun və klubda çalışanların əməyinin bəhrəsidir. Hər bir şey yüksək səviyyədə təşkil olunmuşdu və biz də, öz növbəmizdə, çempionluğu bayram etdik. Bu çempionluqda əməyi keçən hər bir kəsə minnətdarlığımı bildirirəm.

***– Çempionluqdan artıq 5 mövsüm keçib və yenidən Naxçıvandasınız. Məlum olduğu kimi, həm də Futbol Federasiyasında böyük məşqçi vəzifəsinə təyin olunmusunuz. Qarşıdakı planlarınız nədir?***

– Əslində, bu, çətin və məsuliyyətli işdir. Məqsəd ilk olaraq muxtar respublikada futbolun inkişafına təkan vermək, kütləviliyə nail olmaqdır. Məşqçilərlə də görüşlərimiz oldu, ayrı-ayrı məşqlərdə iştirak etdik, qarşıdakı günlərdə yenidən məşqlərə baxacağıq. Hamımız bir olsaq, bu işin öhdəsindən tez bir zamanda gələcəyik. Əsas odur ki, Naxçıvanda futbol kütləvi hala gəlsin. Həmçinin keçiriləcək müəyyən yaş qrupları üzrə liqalarda istedadlı uşaqları üzə çıxarıb onlarla individual şəkildə də çalışmaq lazımdır. Artıq görəcəyimiz işlərin planları hazırlanıb və buna əsasən hər həftə digər şəhər və rayon komandalarının məşqçilərini, futbolçularını bura dəvət edib seminarlar təşkil edəcəyik.

Futbol Federasiyası işini planlaşdırılmış şəkildə qurub. Əsas hədəf isə uşaq futboludur. Qarşıdakı 5 illik proqramda da nəzərdə tutulan tədbirlərin böyük əksəriyyəti uşaq futbolunun inkişaf etdirilməsi ilə bağlıdır. Görüləcək bu işlərin qısa zaman kəsiyində öz bəhrəsini verəcəyinə əminəm.

***– Sizin də qeyd etdiyiniz kimi, Futbol Federasiyası əsas işini uşaq futbolu üzərində qurub. 5 illik proqrama əsasən qarşıdakı mövsümdə hansı liqalar təşkil olunacaq?***

– Futbol Federasiyasının sədri ilə, həmçinin İcraiyyə Komitəsinin üzvləri ilə görüşlərimizdə bunları müzakirə etmişik. Yekun qərara əsasən cari mövsümdən etibarən 10, 11-12 və 13-14 yaşlı futbolçular



arasında liqalar təşkil olunacaq. Təbii ki, həmin liqaların hər birinin ayrılıqda əsasnamələri ölkə futbol federasiyasının qaydaları çərçivəsində hazırlanıb. Məqsəd bu liqalarda çıxış edəcək istedadlı futbolçuları müəyyənləşdirmək, onları bir araya toplayıb məşqlər aparmaq və Naxçıvanın əsas komandasını formalaşdırmaqdır. Yəni mövsüm ərzində çempion olacaq komandaya digər istedadlı, özünü yaxşı tərəfdən göstərən futbolçular da qoşulacaq və muxtar respublikanı ölkə birinciliklərində təmsil edəcəklər. Bununla yanaşı, federasiya hakimlərin yetişməsinə böyük önəm verir. Bunun üçün artıq seminarlar da keçirilir və gənc hakimlər cəlb olunur.

***– Azərbaycanın futbol tarixində 2-3 tanınmış məşqçidən birisiniz. 8 il ölkənin müəyyən yaş qrupları və əsas yığmasının baş məşqçisi olmusunuz. İndi hər kəsi maraqlandıran bir sual var: Əsgər Abdullayev niyə Naxçıvanı seçdi?***

– Naxçıvanı çox sevirəm və onun futbol sahəsinə kömək etmək üçün buranı seçdim. Naxçıvana ilk gəldiyimdə də demişdim ki, burada çıxış edən futbolçularda xarakter var, heç nədən qorxub-çəkinmirlər. Bu isə bir futbolçunun inkişaf etməsi üçün əlavə stimuldur. Sadəcə, onlara taktiki-texniki məşqlər keçib püxtələşdirmək lazımdır. Muxtar respublikaya ilk dəfə gələrkən öz məşqçim Əhməd Ələsgərova zəng etdim və ondan halallıq istədim. O, səbəbini soruşanda dedim ki, Naxçıvana gedirəm və siz orada komandanı zamanında çıxış etdiyi divizionun lideri səviyyəsinə yüksəltmisiniz, azarkeşlər isə bunu unutmayıb. Sizin qədər də olmasa, orada uğur qazanmağa çalışacağam. Gəldim və çempion olduq.

***– Hazırda “Araz-Naxçıvan” yerli futbolçulardan təşkil olunub...***

– “Araz-Naxçıvan”da əsas məqsəd istedadlı futbolçuları üzə çıxarmaq, Azərbaycan futbolu üçün layiqli naxçıvanlı futbolçular yetişdirməkdir. Əgər belə olarsa, inkişaf tez bir zamanda özünü göstərəcək. Hazırda seleksiya xarakterli məşqlərimiz davam edir. Daha çox yaşı az olan oyunçuları seçməyə çalışırıq. Seçimlər başa çatdıqdan sonra komanda tam olaraq formalaşacaq və təlim-məşq üçün Şərur Olimpiya İdman Kompleksinə yollanacaq. Burada gündə iki dəfə olmaqla, 10 günlük təlim-məşq toplanışı təşkil ediləcək. Avqust ayı ərzində yoldaşlıq görüşləri keçirəcəyik. Bundan sonra komanda yeni mövsümə tam hazır olacaq.

***– Naxçıvanın müasir siması haqqında nə deyə bilərsiz?***

– Naxçıvana “Neftçi”nin futbolçusu olarkən “Araz”la yoldaşlıq oyununa gəlmişdim. 2013-cü ildə isə “Araz-Naxçıvan”a məşqçi kimi dəvət olundum. Gəlib gördüklərim məni heyrətləndirdi, heç bir yeri tanımadım, hər şey tam dəyişmişdi. Özümü Avropanın hər hansı bir şəhərində hiss etdim. Yenidən bura gəldikdə isə tam fərqli mənzərə ilə qarşılaşdım. Naxçıvan gündən-günə gözəlləşən, müasirləşən bir şəhərdir. Burada özümü çox rahat hiss edirəm.

***– Naxçıvan futbol ictimaiyyətinə, azarkeşlərimizə sözünüz...***

– Naxçıvan azarkeşləri hər zaman öz komandasının arxasında durub, hər oyunda onu sonadək dəstəkləyiblər. Hətta ötən dövrdə getdiyimiz səfər oyunlarında belə, bizi tək qoymurdular. Bu, futbolçular üçün əlavə güçdür. Muxtar respublika rəhbəri hər zaman idmançıların yanında olur, onlara dəstək verir. Bizə bu etimad göstərilib və bunun öhdəsindən layiqincə gələcəyimizə inanıram. Qısa vaxt kəsiyində Futbol Federasiyasının görəcəyi işlər bəhrəsini verəcəkdir.

***– Bu gün həm də sizin doğum gününüzdür. Qəzetimizin kollektivi adından sizi təbrik edirik. Bu özəl gündə özünüzə nə arzu edərdiniz?***

– Bu gün Naxçıvanda mənə böyük etimad göstərilib, mən də bu etimadı doğrultmağa çalışacağam. Hər bir insan ad günlərini fərqli şəkildə qeyd edir. Ancaq mən təmtəraqlı doğum günləri keçirməyi sevmirəm. Dahi Nizami Gəncəvinin “Kərpickəsən kişinin dastanı”nda olduğu kimi mən öz kərpicimi kəsə-kəsə gedirəm (gülür). Əsas məsələ çalışdığım sahədə nailiyyət əldə etməkdir. Hər şeydən öncə işimi sevirəm, qarşıma nə məqsəd qoyulursa, həmin məqsədə çatmağı özümə borc bilirəm. Mənim üçün ən böyük doğum günü hədiyyəsi, ən böyük arzu göstərilən etimadı doğrultmağımdır.

**✍ Ceyhun MƏMMƏDOV**

## Yay tətili günlərində şagirdlərin asudə vaxtlarının səmərəli təşkili diqqətdə saxlanılır

*Bu gün muxtar respublikada gənclərin təhsilli və sağlam böyümələri, vətənpərvərlik ruhunda yetişmələri, istedad və bacarıqlarının üzə çıxarılaraq düzgün formalaşdırılması üçün hər cür şərait yaradılıb. Belə müəssisələr üçün yeni binalar tikilib və ya əsaslı təmir olunaraq müəllim və şagirdlərin istifadəsinə verilib, məktəbdənkənar müəssisələrin maddi-texniki bazasının gücləndirilməsi işi də diqqət mərkəzində saxlanılıb.*



Muxtar respublikamızda fəaliyyət göstərən məktəbdənkənar təhsil müəssisələrindən biri də Texniki Yaradıcılıq Mərkəzidir. Mərkəz 1953-cü ildə Gənc Texniklər Stansiyası adı ilə fəaliyyətə başlayıb. 1991-ci ildən adı dəyişilərək Texniki Yaradıcılıq Mərkəzi kimi fəaliyyətini davam etdirir. Mərkəzin yaradılmasında məqsəd uşaqların asudə vaxtlarını səmərəli keçirmələrini təşkil etmək, istedadlarını üzə çıxarmaq, peşə istiqamətinə yönəltməkdir.

Məktəbdənkənar müəssisə öz işini tədris ilinin əvvəlində hazırlanmış və təsdiq olunmuş iş planı əsasında qurur. Plana əsasən şagirdlərə doğma diyarımızı, onun qədim abidələrini, milli dəyərlərini, tanınmış şəxsiyyətlərini yaxından tanıtmaq məqsədilə onların muzeylərə, tarixi abidələrə ekskursiyaları təşkil olunur. Dərnək üzvləri həm də respublika üzrə keçirilən müsabiqələrdə, festival və sərgilərdə hazırladıqları əl işləri ilə iştirak edirlər. Onların fərdi şəkildə hazırladıqları əl işlərindən – rəsm, toxuma, tikmə, maket və modellərdən ibarət sərgilər təşkil olunur. Dərnək üzvlərinin əl işləri sərgi, müsabiqə və festivallarda yer tutaraq diplom və fəxri fərmanlara layiq görülüb.

“Texniki rəsmxət” dərnəyinin üzvləri “Naxçıvan – mənim doğma diyarım”, “Milli-mənəvi dəyərlərimiz – Novruz”, “Naxçıvan – 95” adlı rəsm müsabiqələrində 1-ci, 2-ci və həvəsləndirici yerləri tutaraq diplom və hədiyyələrlə mükafatlandırılıblar.

“Təyyarə və raket modelçiliyi” dərnəyinin hazırladığı təyyarə modellərinin respublika stadionunda dəfələrlə sınaq uçuşları keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli müvafiq Sərəncamına əsasən bu tədris ilində doqquz kitabın müzakirəsi keçirilib. “Zərərli vərdişlərdən necə qorunmalı”, “Ağ ölüm” mövzularında maarifləndirici söhbətlər aparılıb. “Viktorina” intellektual oyun, “Mən istedadlıyam”, “Naxçıvan – doğma diyarım” adlı bilik yarışmaları təşkil edilib. Bu tədbirlər dərnək üzvlərinin asudə vaxtlarının düzgün təşkilində, dünyagörüşünün formalaşmasında, intellektual biliklərinin artmasında, oxu vərdişinin, əl qabiliyyətinin inkişaf etdirilməsində mühüm rol oynayır.

Şagirdlərin bu tətil günlərini daha maraqlı və mənalı keçirmələri üçün yeni tədbirlər planı hazırlanıb. Plana əsasən Şahbuz və Şərur rayonlarına ekskursiya edən məktəblilərin Texniki Yaradıcılıq Mərkəzində əl işlərindən ibarət sərgi nümayiş edilib. Sərgidə “Təyyarə və raket modelçiliyi”, “Texniki rəsmxət”, “Bacarıqlı əllər” və “İbtidai texniki modelləşdirmə” dərnəklərinin üzvləri əyani olaraq maket, model, rəsm işləri hazırlayaraq təyyarə modellərinin sınaq uçuşu keçirilib.

Sərginin nümayişi, yeni əl işlərinin hazırlanması hər iki mərkəzin kollektivinin və dərnək üzvlərinin bir-birini yaxından tanımasına, maraqlı əl işlərinin asan üsulla hazırlanması yollarını öyrənməyə, dostluq, birgə iş əlaqələrinin möhkəmlənməsinə şərait yaradır.

Yay tətili günlərində uşaqların asudə vaxtlarının səmərəli keçməsi, zərərli vərdişlərdən uzaq olmaları üçün muxtar respublikanın digər rayonlarına da ekskursiyalar nəzərdə tutulub. Növbəti ekskursiyalar Culfa, Babək və Ordubad rayon Texniki Yaradıcılıq mərkəzlərinə təşkil ediləcək. Bu mərkəzlərdə də birgə sərgi açılacaq və müxtəlif mövzularda hazırlanmış yeni əl işlərinin nümayişi olacaq.

Məktəbdənkənar təhsil müəssisələrində bu cür tədbirlərin keçirilməsi gənc nəslin vətənpərvər, zəhmətkeş, bacarıqlı və cəmiyyətə layiq vətəndaş kimi yetişdirilməsində mühüm rol oynayır.

**Nubar ALLAHVERDİYEVA**
*Texniki Yaradıcılıq Mərkəzinin direktoru*


ŞƏRQ qapısı

Baş redaktorun müavini:
RAUF ƏLİYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 503